**Nardar.** Cavanşir Yusubov: Azərbaycanın müasir tarixində yeni mərhələ başlayır / Nardar // Yeni Azərbaycan. - 2020. - 4 dekabr. - **№ 217**. - S. 6.

Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə müzəffər Azərbaycan Ordusu 44 günlük Vətən müharibəsində qızıl hərflərlə tarixi bir salnamə yazdı". Bu fikri qəzetimizə açıqlamasında Yeni Azərbaycan Partiyası (YAP) Mingəçevir şəhər təşkilatının sədri Cavanşir Yusubov deyib.
C.Yusubov bildirib ki, rəşadətli Azərbaycan Ordusunun əzmi və Ali Baş Komandan İlham Əliyevin uzaqgörənliyi, qətiyyəti və yenilməz iradəsi nəticəsində dekabrın 1-də Laçın rayonu bir güllə atılmadan, bir şəhid verilmədən işğaldan azad olundu. Uzun illər işğal altında saxlanılmış bu böyük rayonun Azərbaycanın nəzarətinə keçməsi dövlət sərhədlərinin tam bərpası deməkdir və bununla Azərbaycan tarixi qələbəyə imza atdı.
Cavanşir Yusubovun fikrincə, bu çox böyük siyasi qələbədir: "Əslində, hər birimiz tam əminik ki, siyasi yolla olmasa da, hərbi yolla Azərbaycan Ordusu mütləq Laçını, Kəlbəcəri və Ağdamı düşmən tapdağından azad edəcəkdi. Buna heç bir şübhə yoxdur. Amma, eyni zamanda, biz hər birimiz bilirik ki, yerləşdikləri çətin relyefdə mövsüm şərtləri də nəzərə alınarsa, bizim müəyyən qədər itkilərimiz olacaqdı. Sadəcə onu xatırlamaq kifayətdir ki, Ağdamda 5 müdafiə xətti var idi. Və bunların hər birinin aşılması zamanı itkilər qaçılmaz idi. Buna görə də Ağdam, Kəlbəcər və Laçın rayonlarının dinc yolla geri qaytarılması Azərbaycanın böyük və möhtəşəm siyasi qələbəsidir. Təbii ki, düşmən buna öz xoşu ilə razı olmadı. Bu birbaşa Azərbaycan Silahlı Qüvvələrinin cəbhədə əldə etdiyi qeyd-şərtsiz qələbənin məntiqi davamı idi. Prezident İlham Əliyevin dekabrın 1-də xalqa müraciətində qeyd etdiyi kimi biz hərbi gücümüzlə Ermənistanı buna məcbur etdik. Beləliklə, Azərbaycanın müasir tarixində yeni mərhələ başlayır. Bu mərhələdə işğaldan azad olunmuş ərazilərin bərpası, məcburi köçkünlərin öz doğma yurdlarına qayıtması həyata keçiriləcək. Ən əsası isə budur ki, biz yeni mərhələyə daha güclü və qüdrətli Azərbaycanla qədəm qoyuruq".
**NARDAR**